Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Nəsrimizin “generalı” Hüseyn Abbaszadə

**Xalq yazıçısı Hüseyn Abbaszadənin 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Nəsrimizin generalı Hüseyn Abbaszadə -** Xalq yazıçısı Hüseyn Abbaszadənin 100 illiyi münasibə**tilə** mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 37 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

# Bölmə I
## Həyat və yaradıcılığı

Müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri Hüseyn Abbaszadədir. Hüseyn Abbaszadə hələ əllinci illərdə bir uşaq şairi kimi ədəbiyyatda öz yerini tapmışdı. Onun şeir, poema və nağılları, Bakının eləcə də Moskvanın nəşriyyatlarında işıq üzü görən kitabları barədə ədəbi tənqid, müsbət fikir söyləmişdi. Şairin onlarca şeirinə bəstəkarlarımız musiqi bəstələmiş, həmin mahnılar pioner və məktəblilərin respublika müsabiqələrində mükafata layiq görülmüşdü.

Uzun illər "Göyərçin" jurnalının, "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru, Azərbaycan Yazıçılar İttifaqının katibi vəzifələrində çalışan Hüseyn Abbaszadə Azərbaycan ədəbiyyatının inkişafı naminə əlindən gələni əsirgəməmiş, istedadlı qələm sahiblərinin yaradıcılıq yolunun üstündə həmişə yaşıl işıq yandırmışdır. Ədəbiyyatımızın görkəmli nümayəndələri kimi tanınan, sevilən şair və yazıçılarımızın əksəriyyəti H.Abbaszadədən həmişə qayğı görmüşdür. Yazıçı təkcə gənc yazarlara deyil, yaşlı yazıçılara da himayədarlıq etmişdir.

H.Abbaszadənin yaradıcılığı, şəxsiyyəti respublikamızdan kənarda da yüksək qiymətləndirilmiş, onun adı keçmiş SSRİ-nin tanınmış qələm sahibləri ilə bir arada çəkilmişdir.

H. Abbaszadənin bir-birinin ardınca çap etdirdiyi "Sınaq illəri", "Yaşıl küçə", "Silah dostları" və s. şeir kitabları da onun poeziya aləmində yaxşı ad-san qazana bildiyindən xəbər verirdi. Görkəmli ədəbiyyatşünas Vadim Koyevnikov vaxtilə demişdi: "Böyük Vətən müharibəsi haqqında çoxmillətli sovet ədəbiyyatının zənginliyini və orijinallığını V.Lasis, O.Qonçar, N.Rıbak, Ş.Rəşidov, S.Bakbergenov, R.Çaparidze, H.Abbaszadə, E.Mejelaytis və bir çox başqaları artırmışlar". V.Piskunov isə sovet ədəbiyyatındakı yeni dalğadan danışanda Azərbaycandan Hüseyn Abbaszadəni yada salmışdı.

II Dünya müharibəsinin od-alovunda bərkimiş H.Abbaszadə silahını qələmlə əvəz etmiş, yorulmaq bilmədən yazıb-yaratmış, gördüyü, yaxından tanıdığı döyüş və əmək qəhrəmanlarının, ömrü burulğanlarda keçən ziyalıların, sadə, namuslu insanların bir-birinə bənzəməyən bədii obrazlarını yaratmışdır.

Bədii yaradıcılıqda zəngin həyat təcrübəsi olduqca mühüm əhəmiyyət kəsb edir. Böyük rus yazıçısı L.Tolstoy təsadüfi demirdi ki, yazıçı qatarda gedəndə belə ümumi vaqonda, insanlar arasında olmalıdır. Bu mənada Heminquey cəbhədə olmayan ədibi əsl yazıçı hesab etmirdi. H.Abbaszadə müharibənin dəhşətlərini öz gözləri ilə görməsəydi "General" kimi monumental, həyatın real lövhələrini yüksək sənətkarlıqla əks etdirən bir roman yarada bilərdimi? H.Abbaszadə yaradıcılığını şərtləndirən ən başlıca amil onun daim insanlar arasında olması, müharibənin dəhşətlərini, Stalin rejiminin faciələrini öz gözləri ilə görməsidir. Həyatın bütün ağırlıq və burulğanlarından ləyaqətlə, təmiz adla çıxan Hüseyn Abbaszadənin qəhrəmanları da xaraktercə, müəyyən mənada, elə onun özünə bənzəyirlər.

Hüseyn Abbaszadə döyüşdən təkcə orden və medallarla deyil, gələcək əsərləri üçün zəngin həyat materialları ilə qayıtmışdır. O təkcə şinelinə deyil, taleyinə, yaradıcılığına da barıt qoxusu hopmuş bir qələm sahibidir. Elə buna görədir ki, yazıçının qəhrəmanlarının böyük bir qismi cəbhə yollarından keçmiş insanlardır. Müəllif çiyin-çiyinə vuruşduğu dostlarının mükəmməl bədii obrazlarını-prototiplərini yarada bilmiş, onların xarakterini tipik sujetlər, döyüş səhnələri fonunda açmağa nail olmuşdur.

Onun yaradıcılığında istifadə olunan hər bir cizgi, təfərrüat bədii detal funksiyasını yerinə yetirdiyi üçün maraqla oxunur. Məsələn, "General" romanında qəhrəmanlıqla həlak olan Həzi Aslanova ümümxalq məhəbbətini ifadə etmək üçün müəllif son dərəcə xarakterik detallardan istifadə etmişdir.

Ədəbiyyata şeirlə gəlməsi H.Abbaszadə nəsrinə lirizm gətirmiş, onun roman və povestlərinin,hekayələrinin bədii məzuniyyətlərini qat-qat artırmışdır. Yazıçının əsərlərini oxuyan A.Vlasenko belə qənaətə gəlib: "Hüseyn Abbaszadənin "Əlibalanın ağır səfəri" romanını oxuyanda hiss etdim ki, bu əsəri ancaq şair qəlbli adam yaza bilər. Lirik xətt əsərin bədii əsasına dərindən nüfuz etmiş, onun təhkiyəsinə bir şirinlik gətirmişdir".

Zəmanəmizin görkəmli qələm ustaları Süleyman Rəhimov, Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev də Hüseyn Abbaszadə yaradıcılığına, şəxsiyyətinə həmişə çox yüksək qiymət vermişlər. Azərbaycan nəsri haqqında yazılan problem məqalələrin heç birində Hüseyn Abbaszadə yaradıcılığının kənarda qalmaması, tədqiqat obyekti seçilməsi də qanunauyğun bir haldır.

Hüseyn Abbaszadənin ədəbi irsi çox zəngindir. Onun çoxlu hekayələri, povestləri, romanları var. Yazıçının maraqlı hekayələri sırasında "Köhnə məhəllədə", "Xeybər əminin gülləri", "Hündür hasar arxasında", "Rəfiqə", "Naxışlar", "Toy, Od, Teleqram", "Qısa məzuniyyət", "Axşam şöbəsinin tələbəsi" və s. xüsusi seçilir. Yığcamlıq, sadə, sujet vasitəsi ilə obrazların daxili aləminin aşılması Hüseyn Abbaszadənin bütün hekayələri üçün xarakterikdir.

Hüseyn Abbaszadə bir neçə romanın müəllifidir. "General", "Burulğanlar", "Əlibalanın ağır səfəri" və "Qayıdanlardan biri" romanları yazıçının gərgin yaradıcılıq axtarışlarının, uzunmüddətli müşahidələrinin nəticəsində yaranan, geniş həyat lövhələrini özündə əks etdirən monumental, çoxşaxəli sənət əsərləridir. "Burulğanlar" romanı Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Əsərə verilən rəmzi ad obrazların keçdiyi əzablı, dolanbac ömür yolu haqqında az söz demir. Öz qəhrəmanlarını zamannın burulğanlarından keçirən müəllif zəngin insan xarakterləri yarada bilmişdir. Əsas qəhrəmanın taleyi timsalında yazıçı

yaşadığımız dövrün, sosial mühitin real mənzərələrini canlandırmışdır. Romanın bu cəhətlərini nəzərə alan ədəbi tənqid "Burulğanlar"ı nəinki yazıçının, eləcə də Azərbaycan nəsrinin uğuru adlandırmışdır.

"Əlibalanın ağır səfəri" romanı bədii məziyyətləri və mövzu aktuallığı ilə nəinki Azərbaycanda, eləcə də xaricdə ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. İki dəfə Moskvada çap olunan bu roman vaxtilə SSRİ Yazıçılar İttifaqının və Ümumittifaq Həmkarlar İttifaqı Şurasının mükafatına layiq görülmüşdü. "Qayıdanlardan biri" romanında əsərin baş qəhrəmanı Xanəlinin taleyi timsalında 37-ci illər represiyyasının ağrılı, səksəkəli günlərini yaşayan soydaşlarımızın ömür yolu obyekt seçilmişdir. Romanı oxuduqca dəhşətli mənzərələr insanı sarsıdır, düşündürür.

Romanın Xanəli, Usta Mazan, Bilqeys, Ziba, Gülbacı, Törə kimi maraqlı obrazları yazıçının həssas müşahidələrinin, gərgin yaradıcılıq axtarışlarının məhsuludur. "Qayıdanlardan biri" romanı müəyyən mənada "Burulğanlar"ın davamıdır. Bu əsər ibrətamiz həyat hadisələri ilə zəngin bir roman kimi xalqımızın mübarizələrlə dolu həyatının bədii salnaməsidir.

Hüseyn Abbaszadə həm də uşaq ədəbiyyatı sahəsində səmərəli fəaliyyət göstərən qələm sahibidir. Mətbuatda onun çoxlu gözəl hekayələri, nağılları çap olunmuşdur. "Yun corab", "Nərgizlə Nigarın nağılları" kitablarında toplanan hekayələr uşaq ədəbiyyatımızın maraqlı nümunələridir. Həssas müşahidələr yazıçıya balaca qəhrəmanların dünyasını yüksək sənətkarlıqla əks etdirmək imkanı vermişdir.

Hüseyn Abbaszadənin belə bir sözü var: "İstedad bir növ qaynar bulağa bənzəyir. Bulaq özünə yol tapdığı kimi, istedad da tez və gec özünü göstərəcəkdir. Əgər ürəkdə deməyə söz varsa və bu söz yenidirsə, xalqa xeyri varsa, o söz deyilməlidir". Ömrü boyu xalqa belə xeyirli sözlər söyləyən, yorulmaq bilmədən yazıb-yaradan, ədəbiyyatımızı öz hekayələri, povestləri, romanları ilə zənginləşdirən Hüseyn Abbaszadənin

anadan olmasının 100 illiyi bu günlər əbədi ictimaiyyətin, çoxsaylı oxucuların diqqət mərkəzindədir.

Elə bu baxımdan da respublikamızın hər bir təhsil müəəsələrində, eləcə də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında yubileylə bağlı hazırlanan tədbirlərlə gəlin yaxından tanış olaq.

**Yubiley tədbirlərinin keçirilməsi**

Bədii yaradıcılığa şeirlə başladı, sevgi nəğmələri, mahnılar yazdı, uşaq dünyasına maraq göstərdi və sonradan keçmiş ümumittifaq miqyasında tarix və müasirliyin vəhdətindən doğmuş iri nəsr nümunələri ilə görkəmli realist sənətkar kimi ad çıxardı. Hüseyn Abbaszadə bir-birinin ardınca həyat uğrunda mübarizədə psixoloji məqamları, sərt həqiqətləri bütün dolğunluğu ilə, maraqlı sujetlərlə, emosional təsir gücü ilə açan əsərlərin müəllifidir.

Xalq yazıçısı H.Abbaszadənin 100 illik yubileyinin geniş şəkildə keçirilməsi üçün respublikamızın hər bir təhsil ocaqlarında, kitabxanalarda tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının geniş və maraqlı olması üçün kitabxanada yazıçının həyat və yaradıcılığını əks etdirən foto sərgi kitablarının nümayişi təşkil olunur. Tədbirə müxtəlif başlıqlar vermək olar. Məsələn: "Nəsrimizin generalı", "Müasir problemlər yazıçısı", "Xalq yazıçısı Hüseyn Abbaszadə-100", " Yazıçı xoşbəxtliyi", və s.

Sərginin nümunəsini sizlər üçün veririk:

1.Başlıq: **"Xalq yazıçısı Hüseyn Abbaszadə-100"**
2. Kitablarının nümayişi.
3.Görkəmli insanların yazıçı Hüseyn Abbaszadə haqqında söylədikləri.
4. Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası.
6. Foto sərgi

7.Şeir parçası
Ey sinif yoldaşlarım,
Sizdən ayrı düşəndən
Yaman darıxıram mən.
Hərdən çayda üzəndə,
Başı qarlı dağların
Ətəyində gəzəndə
Sizi xatırlayıram.
Elə sizi anıram,
Sizsiz şən yaylaqlarda
Özümü tək sanıram;
Deyirəm kaş ki, siz də
Yanımda olaydınız.
Mahnınızla dərəyə
Düzə, səs salaydınız.
Ey sinif yoldaşlarım,
Sizdən ayrı düşəndən
Hər gün darıxıram mən.
Doğma məktəbimizi
Burda yada salıram.

**Görkəmli şəxsiyyətlərin Hüseyn Abbaszadə haqqında söylədikləri:**

1. Birgə işlədiyimiz illərdə şair kimi tanınsa da, bilirdim ki, o, Həzi Aslanov haqqında material toplayır, hər gün vaxt tapıb arxiv və kitabxanalarda böyük həvəslə çalışır. Sonralar "General" romanının uğur qazanması onun zəhmətinin layiqli bəhrəsi oldu.

**Oqtay Sadıqzadə,**
*Xalq rəssamı*

2. Hüseyn Abbaszadənin yaradıcılığında "General" romanı mühüm yer tutur. Cəsarətlə demək istəyirəm ki, bu kitab Azərbaycan ədəbiyyatında müharibə mövzusuna həsr olunmuş geniş, şaxəli, sanballı əsərlərdən biridir.
Mən "General" romanını ilk dəfə oxuyanda da, onun haqqında yüksək fikirdə olmuşam, bəyənmişəm. Əsərin qəhrəmanı bizim fəxrimiz, xalqımızın igid sərkərdəsi Həzi Aslanovdur.

**Süleyman Rəhimov,**
*Xalq yazıçısı*

3. O, hekayə janrı sahəsində məhsuldar işləyən yazıçılarımızdandır. Hekayələri sujet konkretliyi, yığcamlığı ilə seçilir. Həmin hekayələr geniş yayılıb, bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunub və iki dəfə 1975-1980-ci illərdə ilin ən yaxşı hekayəsi kimi "Oqanyok"jurnalının mükafatını alıb.

**İlyas Əfəndiyev,**
*Xalq yazıçısı*

4. “Burulğanlar” romanı yazıçının əvvəlki əsərlərini demək olar ki, əsas mövzu xətlərini, onun zəngin həyat və sənətkarlıq təcrübəsini özündə cəmləşdirmişdi. Yazıçının müxtəlif əsərlərinə xas olan epik, dramatik və faciəvi cəhətlər, sərt realizmi və inqilabi romantika bu romanda birləşib onun təhkiyyə üsulunu zənginləşdirib, yeni sintetik forma yaratmışdır. Elə buna görə də “Burulğanlar” romanı həm H. Abbaszadənin yaradıcılığında, həm də müasr nəsrimizdə əbədi hadisəyə çevrilmişdir.

**Seyfulla Əsədullayev,**
*Professor*

5. Namusla yaşayan insan taleyi yazıçının əsərlərinin əsas mahiyyətini təşkil edir, insanpərvərlik, mərdlik müxtəlif obrazlarda, tiplərdə öncül əxlaqi motiv olaraq izlənilir. Bu keyfiyyət Hüseyn Abbaszadə nəsrinin bütün nümunələrində açıq-aydın özünə yer tapıb. O, hadisələrə, talelərə münasibətdə ali həqiqətlərə söykənir, təsvirin emosional gücü, aydın poetik nəsr dili ilə oxucunu sevindirməyi, heyfsləndirməyi, başlıcası isə, düşündürməyi sevir və bunu ustalıqla bacarır, həyatda təmənnasız və iddiasız yaşamağın gözəlliyini anladır özü kimi. Məhz bu kimi xüsusiyyətlər ona geniş oxucu kütləsinin rəğbətini qazandırıb, ədəbiyyatda missiyasını ləyaqətlə yerinə yetirən, milli mədəniyyətimizə vicdanla xidmət edən xalq yazıçısı olaraq sevdirə bilib.

**Dəyanət Bayramov,**
*Jurnalist*

6. H.Abbaszadə Azərbaycan ədəbiyyatını ölkəmizin hüdudlarından çox-çox uzaqlarda da layiqincə təmsil edən yazıçılardandır. O, vaxtilə SSRİ məkanında Azərbaycan nəsrinin tanınmasında az rol oynamayıb. Məncə, H.Abbaszadə xoşbəxt yazıçıdır.

**Vaqif Yusifli,**
*Filologiya elmləri doktoru*

7. H. Abbaszadə yaşadığı dövrün həqiqətlərini, cəmiyyətdə baş verən mənəvi-əxlaqi prosesləri yaxından izləyirdi. Onun təsvir etdiyi qəhrəmanların əksəriyyəti adi insanlar idi. O, bu adi insanların haqq-ədalət uğrunda mübarizəsini, hər cür çətinliyə rast gəlsələr də, həyat imtahanından, ağır sınaqlardan uğurla adladıqlarını, ən başlıcası isə insanlıq ləyaqətini hifz etdiklərini povest və hekayələrinin mövzusuna çevirirdi. Hüseyn Abbaszadə bir yazıçı kimi məhz həyat həqiqətlərinə sadiq qalırdı. "Qaradağ əhvalatı", "Qapını döyürlər", "Evə kölgə düşür", "Mansur", "Ləpədöyəndə", "Xahiş", "Dələ", "Axşam şöbəsinin tələbəsi", "Vəzifə", "Körpüdə" povestlərində, "Zəmanət", "Xeybər əminin gülləri", "Çəhrayı mürəkkəbqabı və yaşıl "Jiquli"" hekayələrində məhz cəmiyyətdəki bu ikiliiklər - yəni mənəvi-əxlaqi qarşıdurmalar diqqəti cəlb edir.

**Vaqif Yusifli,**
*Filologiya elmləri doktoru*

8. H.Abbaszadə kiçik hekayə ustası kimi geniş tanınsa da o, nəsrə irimiqyaslı janr və mövzularla, general obrazı və roman janrı ilə gəlib.

**Yaşar Qarayev,**
*Tənqidçi, ədəbiyyatşünas*

9. Ədibin əsərlərinə hakim olan müasirlik hissi, onu bir sənətkar və vətəndaş kimi düşündürən, həyəcanlandıran problemlərin aktuallığı, siyasi-etik mənası ilə müəyyənləşir, müəllif mövqeyinin aydınlığı ilə təsbit olunur. O, mərdliyi və qəhrəmanlığı tərənnüm edəndə də, qorxaqlıq və eqoizmi, meşşanlıq və qənimətçilik kimi mənfi keyfiyyətləri tənqid atəşinə tutanda da qabaqcıl ideyaların ehtiraslı müdafiəçisi kimi çıxış edir.

**Yəhya Seyidov,**
*Professor*

10. Hüseyn Abbaszadənin yaradıcılığı, şəxsiyyəti respublikamızdan kənarda da yüksək qiymətləndirilmiş, onun adı keçmiş SSRİ-nin tanınmış qələm sahibləri ilə bir sırada çəkilmişdir.

**Rafiq Yusifoğlu,**
*professor*

**Kitablarının nümayişi**







ОНУ ТАНЫМАДЫЛАР
ҺУСЕЈН АББАСЗАДӘ


ҺУСЕЈН АББАСЗАДӘ
ЛӘПӘДӨЈӘНДӘ
АЗӘРНӘШР·1964


ҺУСЕЈН АББАСЗАДӘ
БУРУЛҒАНЛАР


ҺУСЕЈН АББАСЗАДӘ
ГАПЫНЫ ДӨЈУРЛӘР


Haradansınız, müsyö Abel?
HÜSEYN ABBASZADƏ


ҺУСЕЈН АББАСЗАДӘ
Нәркизә Никарын нағыллары













Müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri xalq yazıçısı Hüseyn Abbaszadənin 100 illiyi ilə bağlı keçirilən silsilə tədbirlərdən biri də kitab müzakirəsidir. Kitabxanamızın fondunda H.Abbaszadənin bir çox kitabları var ki, bunlardan biri də “Uzaqdan gələn qonaq” adlı kitabdır.




Kitabda bir çox povest və hekayələr yer alıb. “Uzaqdan gələn qonaq” adlı kitaba eyni adlı povest, hekayələr və “Portret cizgiləri” silsiləsindən yeni fəsillər daxil edilmişdir. Müzakirəsinə yığışdığımız bu povest Böyük Vətən müharibəsi mövzusunda yazılmışdır. İtaliya torpağında faşistlərlə mübarizədə həlak olmuş bir azərbaycanlı döyüşçünün oğlu 27 ildən sonra ata yurduna-Azərbaycanın uzaq bir dağ kəndinə, qohumlarını görməyə gəlir. Həmin səfərdə o, maraqlı əhvalatların şahidi olur. Əsərdə azərbaycanlı döyüşçünün igidliyinin, onun italiyalı qıza saf məhəbbətinin təsvirinə də geniş yer verilmişdir.

Müəllif, hekayələrində müasirlərimizin mənəvi aləmini göstərir, mühüm etik-əxlaqi məsələlərə toxunur. **“Portret cizgiləri”** silsiləsində isə yazıçı xalqımızın sevimli oğullarının-görkəmli şəxslərin: yazıçıların, rəssamların, artistlərin, musiqiçilərin həyatından şahidi olduğu hadisələri qələmə almış, onlar haqqında öz fikirlərini söyləmişdir.

Tədbirdə bir çox çıxış və məruzələr dinləndikdən sonra yazıçı H.Abbaszadənin kitablarından hazırlanmış sərgiyə baxış keçirilir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Azərbaycan ədəbi ictimaiyyətinin görkəmli nümayəndəsi Hüseyn Abbaszadənin 100 illik yubileyi ilə bağlı təşkil olunan tədbirlərdən biri də “Sizin sevimli yazıçılarınız” adlı tədbirdir. Tədbiri təşkil edən kitabxanaçı yazıçı Hüseyn Abbaszadə haqqında geniş və ətraflı məlumat verir.

Əziz oxucular, yazıçı Hüseyn Abbaszadə 1922-ci il noyabr ayında Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi Bakı şəhərində bitirdikdən sonra könüllü olaraq orduya gedib. Zaqafqaziya cəbhəsində kursant, Şimali Qafqaz cəbhəsində

kəşfiyyatçı-radist, Bakı hərbi məktəbində kursant, I Leninqrad, IV Ukrayna cəbhəsində topçu zabit kimi iştirak edib. Başqa sözlə desək, H.Abbaszadə öz qəhrəmanı Həzi kimi müharibənin dəhşətlərini öz gözləri ilə görüb. Elə buna görə də yazıçının əsərlərində döyüş səhnələri çox canlı, insanların arzu və düşüncələrinin təsviri inandırıcı çıxmışdır.

Onun müharibədən sonra yazıb çap etdirdiyi "Sınaq illəri", "Yaşıl küçə" və "Silah yoldaşları" kitablarında da müharibənin insan taleyinə təsiri məsələsi ön plandadır.

Müharibədə zəngin həyat məktəbi keçən Hüseyn Abbaszadə müharibədən sonra ali təhsil almaq, biliyini artırmaq arzusunu həyata keçirir. O, indiki Azərbaycan Dövlət İncəsənət Universitetinin teatrşünaslıq fakültəsinə qəbul olub və 1950-ci ildə oranı bitirib. "Pioner" jurnalı redaksiyasında şöbə müdiri, məsul katib, "Göyərçin" jurnalı redaksiyasında məsul katib, baş redaktor vəsifəsində işləməsi Hüseyn Abbaszadənin uşaq ədəbiyyatı ilə məşğul olmasına zəmin yaradıb. O, öz hekayələri, oçerkləri və şeirləri ilə uşaq mətbuatında müntəzəm çıxış edib. "İlqar", "Yasəmən" kitablarını çap etdirib. Daha sonra o qələmini şeir yazmaqda da sınayıb. Onun uşaq şeirləri "Ağarır yelkənimiz", "Bacı və qardaş", "Şəlalə", "Sən nə yaxşı nənəsən" bu kimi şeirləri kitablarında toplanıb. Yazıçının yazdığı bu şeirlər öz təbiiliyi, rəvanlığı, uşaq təfəkkürünə uyğunluğu ilə seçilsə də, onların bəzilərinə mahnılar bəstələnsədə də, Hüseyn müəllimin ürəyində həyatın daha geniş lövhələrini əks etdirmək meyli baş qaldırır. Elə buna görə də H.Abbaszadə hekayələr, povestlər, romanlar yazmağa daha çox üstünlük verib.

H.Abbaszadə 1966-cı ildən 1971-ciilədək "Ədəbiyyat və incəsənət"qəzetinin baş redaktoru vəzifəsində işləyib. 1972-ci ildən 1975-ci ilədək yenidən "Göyərçin" jurnalına redaktorluq edib.

Müasir Azərbaycan ədəbiyyatının tanınmış siması Hüseyn Abbaszadə yaradıcılığını daha geniş təbliğ etmək üçün kitabxanamızda nağıl saatının keçirilməsi də məqsədəuyğun

olardı. Tədbiri təşkil edən kitabxanaçı H.Abbaszadə yaradıcılığından geniş söhbət açdıqdan sonra yazıçının uşaqlar haqqında yazdığı bir çox kitablarla oxucuları tanış edir.

Beləki, ilk əvvəl yazıçının əkiz nəvələrinə həsr etdiyi "Nərgizlə Nigarın nağılları" adlı kitabındakı hekayələrlə sizləri tanış edək. Yəqin ki, "Nərgizlə Nigarın nağılları" adlı kitabın adı sizə tanışdır. Yazıçı Hüseyn Abbaszadənin əkiz qızlar haqqında yazdığı hekayədə şən, mehriban, qoçaq qızların Nərgizlə-Nigarın başına gələn əhvalatlar olduqca maraqlıdır. Onların ilk dəfə təbiətlə, quşlarla, heyvanlarla dostluğu, arzuları, istəkləri kitabda geniş təsvir olunub.

Bu hekayələr müəllifin təxəyyülü ilə həyat həqiqətlərinin birləşməsi nəticəsində yaranmış hekayələrdir. Hekayələrin hər biri şirin, duzlu-məzəli nağılı xatırladır.




Kitabda müəllif oxucularına belə müraciət edir.
Əziz balalar!
Nərgizlə Nigar mənim nəvələrimdir. Əkiz bacıdırlar. Bir-birlərini çox istəyirlər. Həmişə də bir yerdə olurlar.

Bu kitabda toplanmış hekayələrdə təsvir edilən hadisələr müxtəlif illərdə Nərgizlə Nigarın başına gəlib. Mən onların

çoxunun şahidi olmuşam. Görmədiklərimi isə sonra bacılar mənə danışıblar, yazmışam. Buna görə də kitabın adını "Nərgizlə Nigarın nağılları" qoymuşam, hamısını da birinci onlara oxumuşam.

İndi də siz oxuyun.

Əziz, oxucular gəlin birlikdə bu hekayələrin bir neçəsinə qulaq asaq.

Kitabxanaçı "Əkizlər" hekayəsini oxuyur.

Nərgizlə Nigar bacıdırlar. İkisi də bir boydadırlar. Bir gündə, br saatda anadan olublar. Buna görə də onlara əkiz deyirlər. Ancaq Nərgiz Nigardan yarım saat böyükdür.

Nərgizlə Nigar əkiz olsalar da, başqa əkizlər kimi heç bir-birlərinə oxşamırlar. Nərgizin gözlərinin, saçlarının rəngi şabalıdıdır. Nigarınkı qapqara. Özləri də bir-birinə bənzəmir, səsləri də. Bununla belə bacılar çox mehribandırlar. Nərgiz Nigarı çox istəyir, Nigar da Nərgizi. Bir yatırlar, bir dururlar, bir yeyirlər, bir yerdə oynayırlar. Sözləri də birdir, istəkləri də. Nərgiz nə istəyirsə, Nigar da deyir. Nigar nə deyirsə, Nərgiz də onu deyir. Məsələn Nərgiz deyəndə:

-Mən gəzməyə getmək istəyirəm.

Nigar da deyir:

-Mən də gəzməyə getmək istəyirəm.

Nigar deyəndə:

-Mənim konfetdən xoşum gəlir.

Nərgiz də deyir:

-Mənim də konfetdən xoşum gəlir.

Nərgiz Nigarın tərəfini saxlayır, Nigar da Nərgizin tərəfini saxlayır. Ancaq əkiz bacıların hərəsinin bir cür xasiyyəti var.

İndi isə gəlin birlikdə "Nərgiz və Nərgiz gülü" hekayəsinə qulaq asaq.

Əkiz bacıların anası Məleykənin ad günü idi. Evlərinə gələn qonaqlar çoxlu gül gətirmişdilər. Bu güllərin arasında bir dəstə xoş ətirli, sarı, zərif gül də vardı, adı nərgiz. Bunu bilən balaca Nərgiz sevinclə atılıb düşə-düşə dedi:

-Bu mənim gülümdü, nərgiz gülüdü!
Sonra o nərgiz güllərini iki yerə bölüb yarısını Nigara verdi.
-Bax, bacı, bu mənim gülümdü, nərgizdi, qəşəng güldü.

Nigar bacısından gülləri alıb baxdı və sakitcə qaytardı.
-İstəmirəm.

Nərgiz mehriban-mehriban dedi:
-Götür, bacı, götür, mən bunları bağışlayıram sənə.
Nigar gülləri götürmədi.
-O sənindi. Bəs mənim güllərim hanı?
Nərgiz dedi:
-Bunlar həm mənimdi, həm də sənindi.
Nigar dedi:
-Yox, mən öz Nigar güllərimi istəyirəm.
Nərgiz gəlib anasından soruşdu:
-Bu, nərgiz gülüdü. Mənimkidi. Bəs bacımın Nigar gülü hanı?
Anası Nərgizin əlindən tutub incik-incik dəhlizin divarına söykənən Nigarın yanına gəldi.
-Qızım, Nigar gülü yoxdu. Hamının adına gül olmur. Bəyəm mənim, atanın, nənənin adına gül var?
Gəl gedək, sənə qərənfil verim. O da qəşəng güldü, olsun səninki.
Nigar ağ, qırmızı qərənfilləri alıb bağrına basdı.

Bəli, əziz uşaqlar, gördüyünüz kimi, həm Nərgiz, həm Nigar ağıllıdır, hər kisi yaxşı qızdır, onların necə yaxşı qız olduqlarını bilmək istəyirsinizsə, onda buyurun, kitabxanamızın fondunda olan "Nərgizlə Nigarın nağılları" kitabını götürüb oxuyun. Ümid edirik ki, bu kitab sizin stolüstü kitablarınızdan biri olacaq.

H.Abbaszadənin qələmə aldığı "Qumru quşunun balaları", "Qara döşlü qağayı", "Ağaclar yanır", "Gülməli şəkil" adlı hekayələr də dediklərimizə misaldır. Bu əsərlərdə qızların həm qumru quşunun balalarına, həm qu quşlarına, həm də eldar şamına necə böyük məhəbbətlə, qayğı ilə yanaşdıqları göstərilib.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan nəsrinin sütunlarından biri H.Abbaszadənin yaradıcılığının çox hissəsi uşaqlara həsr edilmişdi. Yubilyarın yaradıcılığına bir daha müraciət edərək kitabxanamızda kiçik yaşlı oxucular üçün səhərcik təşkil olunur. Təşkil etdiyimiz tədbir oxucuların çox sevdiyi tədbirlərdən biridir. Gəlin birlikdə H.Abbaszadənin "Yun corab" adlı şeirinə qulaq asaq.



Mənim uzunboğazlı
Bir gözəl corabım var.
Ayağımı üşütmür
Əsən külək, yağan qar.
Nənəm yayda toxumuş
Mənə bu yun corabı.
Üstündə güllər açmış:
Yaşıl, qırmızı, abı.
Sapları rənbərəngdir,
Xalı kimi qəşəngdir
Mənim təzə corabım.
Ayağıma geyəndə
Çatır dizə corabım.

Nənəm yaxşı ustadır,
Qızıldandır əlləri,
Yanından əksik olmur
Yumaqları, milləri.
Elə gözəl əlcəklər,
Yun corablar, köynəklər
Toxuyur ki, baxanlar
Bir də baxmaq istəyir.
Hamı: “Yasəmən qarı
Mahir ustadır” deyir.

Yun corab birdən-birə
Hazır olmur, uşaqlar.
Bilirsinizmi, bunun
Nə qədər zəhməti var.
Nənəm qoçaq arvaddır,
O qorxmur heç bir işdən.
Nə olsun ki, qocadır,
Yaşı keçib yetmişdən;
Canı sağlamdır ancaq.
Xəstələndirmir onu
Nə bürkü, nə də sazaq.

Uşaqlıqdan öyrənib
Təmiz dağ havasına,
Gözəl bağ havasına.
Deyəndə ki, az işlə,
Qocalmısan, ay nənə.
Deyir, bala, iş görmək
Gümrahlıq verir mənə.
Bircə gün əllərimə
Toxunmasa yumaq, mil.

Bekar gəzməkdə məni
Qınayırlar elə bil.

Havalar qızan kimi
Babam qırxır qoyunu,
Nənəm də dağ çayında
Təmiz yuyur bu yunu.
Sərir günün altına.
Yun quruyub ağ olur
İpək tək yumşaq olur.
Sonra da nənəm onu
Salır köhnə cəhrəyə.
Əyirir, dodaqaltı
Bayatı deyə-deyə.

Yazda Qoşqar dağında,
Xaşbulaq yaylağında
Əsəndə xoş küləklər,
Çöllərdə güldən-gülə
Qonanda kəpənəklər,
Nənəm gəzməyə çıxır
Kəndin çəmənlərini,
Səfalı bağlarını,
Yaşıl düzənlərini.
Bahar çiçəklərindən
Toplayır qucaq-qucaq.
Birinin ləçəyi ağ,
Birininki narıncı,
O biri əlvan olur.

Adam bu çiçəklərə
Baxanda heyran olur.
Hələ yaxşı bilmirəm
Onların adını mən,

Gərək bir-bir öyrənim
Bunu qoca nənəmdən.
Siz heç bilirsinizmi
Nənəm bu çiçəklərdən,
Ətirli ləçəklərdən
Neçə cürə rəng alır?

Əyirdiyi sapları
İri küplərə salır,
Boyayır səliqəylə.
Hər yumaq bir rəng olur,
Hamısı qəşəng olur.
Nənəmin boyadığı
Bu rəngbərəng sapları
Nə gün soldura bilər,
Nə də ki, qışın qarı.

Nənəm işsiz dayanmır.
Saplar hazır olanda,
Oturub döşək üstə
Yenə güllü eyvanda,
Gümüşü millərini
Yerə qoymur əlindən.

Dayanıb yanında mən
Tamaşa eləyirəm
Burduğu naxışlara.
Onun qırmızı, qara,
Yaşıl rəngli saplardan
Toxuduğu çiçəklər,
Elə bil ki, canlıdır.
Seyrə çıxıb bu səhər
Bağçalardan dəriblər,
Gətirib yun corabın

Üzərinə səpiblər.



Nənəm yaxşı ustadır,
Qızıldandır əlləri.
Yanından əksik olmur
Yumaqları, milləri.
O, bu gözəl sənəti
Öyrənmiş nənəsindən,
Ondan toxuculuğu
Öyrənirəm indi mən.

Azərbaycanın xalq yazıçısı Hüseyn Abbaszadədən danışanda, onun ömür yoluna, yaradıcılığına nəzər salanda XX əsr Azərbaycan ədəbiyyatının məzmunlu bir səhifəsi göz önündə dayanır. Hüseyn Abbaszadə uzun müddət ədəbi prosesin mərkəzində aparıcı simalardan biri olmuş, təkcə bədii yaradıcılığı ilə yox, şəxsiyyəti ilə də ədəbiyyatımıza, onun inkişafına qayğı, xidmət göstərmişdir. Bildiyiniz kimi, bu il görkəmli yazıçımızın 100 illiyi ilə bağlı silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında yubiliyarın 100 illiyi ilə bağlı təşkil etdiyimiz tədbirlərdən biri

də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecəyə kitabxançı iki ay qabaqcadan hazırlaşır. İlk öncə keçirilən tədbirin planı tutulub, ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbirə şair və yazıçılarla yanaşı, ədəbiyyatşünaslar, oxucular dəvət olunur. Tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Şair ürəkli nasir" adlı tədbirin nümunəsini sizlər üçün təqdim edirik.

Səhnə gül dəstələri ilə bəzədilir. Yazıçının portreti səhnənin divarından asılır. Aparıcılar səhnəyə daxil olur.

**I Aparıcı:**

Özümüz oxuyarıq
Rəflərimiz şəkilli
Kitablarla doludur
Biri "Cırtdan"nağılı,
O biri "Koroğlu"dur,
Nizami baba yazmış,
Bax, bu kitab "Fitnə"dir,
Heç o qalın kitabın
Adı bilirsən nədir?
Hərfləri keçmişik,
Bilirik əlifbanı,
Özümüz oxuyarıq
"Şəngülüm"ü, "Cırtdan"ı

**Müəllif H.Abbaszadə**

Azərbaycan oxucuları üçün Hüseyn Abbaszadə imzası, bu imzadan sıyrılan neçə-neçə roman, povest, hekayə yaxşı tanışdır. Neçə nəsil bu əsərləri sevə-sevə oxumuş, onların qəhrəmanlarına oxşamağa çalışmış, sözün əsl mənasında o əsərlərin aşıladığı nəcib hisslərlə yaşamışdır.

Vaxtilə ulu öndər Heydər Əliyevin xalq yazıçısı Hüseyn Abbaszadənin 75 illiyi münasibətilə yubilyara göndərdiyi təbrikdə oxuyuruq: "Yaradıcılığa faşızmə qarşı müharibə illərində bir əsgər kimi başlayaraq Siz vətənpərvərlik mövzusuna həmişə sadiq qalmısınız. Qəzet və jurnalların baş

redaktoru olduğunuz dövrdə də yaratdığınız əsərlər respublikada ədəbi prosesin inkişafına öz töhvəsini vermişdir. Bu əsərlər gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların hərtərəfli şəxsiyyət kimi yetişməsi işinə xidmət etmişdir”.

H.Abbaszadə Böyük Vətən müharibəsinin iştirakçısı olmuş,bir topçu zabit kimi gərgin döyüşlərə atılmış, dəfələrlə yaralanmış, bir müddət dili tutulmuş, amma yenə sağalıb ön xətdə xidmətini davam etdirmişdir. Rəşadətlərinə görə o zamanın sanballı təltiflərinə layıq görülmüşdür.

Yaradıcılığa cəbhə qəzetlərində dərc etdirdiyi şeirlərlə başlayan H.Abbaszadə 20 ildən çox bu sahədə qələm çalmış, əsasən uşaqlar və yeniyetmələr üçün poema və şeirlərindən ibarət olan “Ağarır yelkənimiz”, “Bacı və qardaş”, “Şəlalə” kimi kitablar nəşr etdirmişdir. Onun sözlərinə bəstələnmiş mahnılar bu gün də Azərbaycan efirində səslənməkdədir.

1950-ci illərin sonlarında təkcə H.Abbaszadə üçün yox, o zamankı Azərbaycan nəsri üçün də əlamətdar olan bir hadisə baş verir. O, şeir yaradıcılığına vida deyərək nəsrə keçir və ədəbiyyatımızın ən yaşarı nümunələrindən olan “General” romanını nəşr etdirir.

“General” XX əsrin birinci yarısında yetişmiş, İkinci Dünya mharibəsinin çox ağır sınaqlarından şərəflə çıxmış Azərbaycan sərkərdəsinin parlaq bədii obrazının yaradıldığı ilk romanımızdır. Bu əsər general Həzi Aslanovun şərəfli döyüş yolu və cəbhəçi ədibin şəxsi yaşantıları əsasında yazılmış, onun müəllifinin çovuyan güllələr altında irəlilədiyi əzablı yollardakı canlı müşahidələrinin nəticəsi kimi hasilə yetişmişdi. Hüseyn müəllimin özünün bu münasibətlə 1967-ci ildə nəşr etdirdiyi bu etirafı bu baxımdan çox maraqlıdır: “Müharibənin böyük təəssüratı biz keçmiş cəbhəçilərin ürəyinin ən dərin guşəsində həmişəlik qalmaqdadır. Biz az qala dünyanın özü uzunluğunda cəbhə yolları keçmişik. Əziz və doğma adamlarımızın qəbirləri bizim həmin yollardakı nişangahlarımız olub. Bu qəbirlərdən hər birinin yanında ürəyimizin bir parçasını qoymuşuq. O zaman

olduğu kimi, ürəyimiz yenə də göynəyir. Buna görə də müharibə haqqında, o dörd ildə başımıza gələnlər haqqında mən sadəcə olaraq yazmaya bilmərəm”.

Qeyd etmək vacibdir ki, “General” romanındakı təsvirlərin, həyat materialı və problemlərin çoxu Azərbaycan ədəbiyyatı üçün tamamilə yeni idi.

Əsərin baş qəhrəmanı Həzi o zaman üçün müasir olan çoxcəhətli və çoxsahəli döyüş əməliyyatlarını hazırlayıb keçirməyi, hava qüvvələri, artilleriya, piyada, rabitəçilər kimi qoşun növləri ilə tankçılar briqadasının mövqe və hərəkətlərini əlaqələndirib düzgün istiqamətləndirməyi bacaran mahir bir hərbi xadim kimi məhz ədibin bu realist bədii təqdimatları əsasında canlanır.

Hüseyn Abbaszadənin “Qızılgül” kitabındakı əsərlərdə mövzu cəhətdən rəngarənglik daha çox nəzərə çarpır. O, indiyə qədər yazılmamış, tamamilə təzə məsələlərdən, əhvalatlardan bəhs etməyə səy göstərdiyindən buna xüsusi diqqət yetirir. Belə maraqlı, yeni, müasir həyatla bağlı olan mövzulara həsr edilən şeirlər onun kitabında çoxdur.

Ekskalator, tunel, paraşüt, elektrik məftilləri, şahmat, vertalyot, mayak, pambıq və s. haqqında yazılan şeirlər kitabda ən yaxşı və ən maraqlı əsərlərdir. Uşaqların yeni məlumat, yeni təsəvvür qazanması üçün bu əsərlərin necə tərbiyəvi əhəmiyyətə malik olduğunu izah etməyə lüzum yoxdur. Yazıçı bunlar haqqında təkcə məlumat verməklə kifayətlənməmiş, bədii cəhətdən canlı və dolğun göstərməyə çalışmış, bir çox şeirlərində istədiyinə müvəffəq olmuşdur. “Paraşüt”, “Tunel”, “Məftillər”, “Yeriyən pillələr” və başqa əsərlər dediklərimizə misaldır.

*Oxucular səhnəyə daxil olur və Hüseyn Abbaszadənin “Yeriyən pillələr” adlı şeirini söyləyirlər.*

Evin pillələrini
Çox çıxıb-düşmüşəm mən
Məhəccərin üstüylə
Xeyli sürüşmüşəm mən;
Yuxarıya qalxanda
Adam bəzən yorulur.
Adam bəzən yorulur.
Mərtəbə arasında
Dincəlmək üçün durur.
Pillə var yastı olur,
Pillə var ki, dik olur.
Pillə var böyük olur,
Pillə var kiçik olur.
Nə fərqi var, pillələr
Uzun olsun, ya gödək.
Onları özün çıxıb,
Özün düşəsən gərək.
Bir pillə də görmüşəm
Aparır adamları.
Özü enir aşağı,
Özü qalxır yuxarı.
O qəribə pillənin
Yaman çətin adı var,
Eskalotor yormayır,
Mehriban qocaları.
Uşaqlar da onunla
Rahat qalxır yuxarı.

H.Abbaszadə təkcə bu mövzularda deyil, başqa mövzularda da şeirlər yazmışdır. Azərbaycanın təbiəti, mənzərələri, uşaqlar arasındakı səmimi münasibətlər, heyvanat aləmi və başqa bu kimi məsələlər şairi həmişə maraqlandırıb. O, şeirlərində gah Abşeronun meyvələrindən, gah da azərbaycanlı bir uşağın zənci balası ilə dostluğundan, gah meşələrin gözəlliyindən, Xəzərdən, Cırtdandan, gah da məktəb

həyatından, sinif şagirdlərinin mehribanlığından söz açır. İndi isə "Cırtdan" şeirini dinləyək. Səhnəyə Cırtdan personalı daxil olur.




Bu elin oğluyam mən,
Hamı bilir-Cırtdanam;
Boyum kiçik olsa da,
Özüm zirək oğlanam.
Çətinliyə düşəndə
İtirmirəm özümü,
Yekə dişli divlər də
Qorxutmayır gözümü.
Hara getsəm həmişə
Ağlıma güvənirəm,
Diribaş uşaqları
Görəndə sevinirəm.
Mehriban nənələrdən
Yəqin eşitmisiniz

Hünərimdən danışan
Şirin nağılımı siz.
Mən bu elin oğluyam,
Hamı bilir-Cırtdanam.
Boyum kiçik olsa da,
Özüm zirək oğlanam.

Hüseyn Abbaszadənin "Qızılgül" kitabında nağıllar və poemalar var ki, bu nağıllarda zülümkar, qaniçən, ağılsız şahlar, xalqanlar ifşa edilir, zəhmətsevən insanların əməlləri ön planda verilir. Kitabda olan "Üç vəsiyyət" nağılı fikri, mənası etibar ilə xüsusilə seçilir. Bu əsərdə zəhmət çəkməyin yüksək zövq mənbəyi olduğu göstərilmişdir. Şairin "on beş qartal", və "Mixaylo" poemalarında qəhrəmanlıq motivləri əsasdır. Uşaqlarda qorxmazlıq, mərdlik, igidlik sifətlərini tərbiyə etməkdə bu əsərlərin tərbiyyəvi əhəmiyyəti böyükdür. Hər iki poema həm inqilab qəhrəmanlarının fəaliyyəti, həm də xalqımızın igid oğlu Mehdi Hüseynzadənin faşistlərə qarşı apardığı mübarizə ilə balaca oxucuları yaxından tanış edir. H. Abbaszadə "Qayıq dənizə çıxır" poemasında uşaqların dəcəlliyini, Veysəl babanın onları ölümdən xilas etməsini göstərir. "Qutan və iki qarışqa balası" poemasını isə şair həvəslə və ilhamla yazmışdır. Qutan haqqında maraqla məlumat verən müəllif, bu əsərdə də zəhmət məsələsini əsas götürmüşdür. Poemada xoş təsir buraxan, səmimi, yaxşı parçalar çoxdur:

Qutana bax, qutana
Çaydan balıq tutana
Ehtiyat kisəsinə
Balıq doldurub yenə.
Sahilində bir çayın
Yatıb sakit, arxayın.

Azərbaycan oxucuları üçün Hüseyn Abbaszadə imzası, bu imzadan sıyrılan neçə-neçə roman, povest, hekayə yaxşı tanışdır. Neçə nəsil bu əsərləri sevə-sevə oxumuş, onların qəhrəmanlarına oxşamağa çalışmış, sözün əsl mənasında o əsərlərin aşıladığı nəcib hisslərlə yaşamışdır.
Oxucular səhnəyə daxil olur H.Abbaszadənin "Barıt iyi" adlı hekayəsindən bir parçanı oxuyur.

Qələbənin o biri ili, payızda Fərid birinci sinfə getdi. Sən bir işə bax, məktəbə gələn uşaqların neçəsinin əynində əsgər geyimindən tikilmiş pencək, köynək, don gördü. Hətta bir oğlan əsgər çantasına kitab yığıb gətirmişdi. Dava yenicə qurtarmışdı. Hələ faşistlərin dağıtdığı fabriklərin, zavodların çoxunu təzədən tikib qurtarmamışdılar. Geyim, kitab, dəftər, yemək çatmırdı. Buna görə də uşaqların çoxunun əynində əsgər geyimindən tikilmiş paltar vardı.

O gün Fərid ağ köynək geymişdi, üstündən də nənəsinin şineldən tikdiyi pencəyi. Nənəsinin atasının şinelindən bicdiyi paltardan daha davanın iyi gəlmirdi. Anası onları kəhrizin suyunda tərtəmiz yumuşdu.

Fərid çox maraqlanırdı görsün o biri uşaqların əsgər geyimindən tikilmiş paltarlarından davanın iyi gəlirmi?

O, tənəffüsdə, qabaq sırada oturan oğlanın yanından ötüb onun zabit kitelindən tikilmiş köynəyini iylədi. Ondan davanın iyi gəlmirdi. Dəhlizdə duran bir qızın əynində əsgər köynəyindən tikilmiş kofta vardı. Fərid dözmədi, gedib onu da yoxladı. Qızın koftasından xoş bir ətir iyi gəlirdi. Hər il nənəsi həyətlərində bitən qızılgülün ləçəklərindən çəkdiyi gülab ətri! Nənəsi hərdən gülabdan Fəridin çayına tökürdü. Elə yaxşı olurdu, içdikcə içmək istəyirdin.

Fərid məktəbdən evə qayıdan kimi mətbəxə getdi. Orda rəfə gülab dolu şüşə qoymuşdu. Fərid kətili ayağının altına qoyub yuxarı qalxdı, ovcuna şüşədən bir neçə damcı gülab töküb pencəyinə sürtdü. Sonra gülabdan aparıb şineldən tikilmiş balaca paltosunun yaxasına, qollarına səpdi.

Fərid məktəb paltarını soyundu, dəhlizə çıxdı. Təzədən dönə-dönə otağa qayıdıb pencəyini, paltosunu iylədi. Hər ikisindən gülab ətri gəlidi. Atasını ondan ayıran dava iyindən bir iz də qalmamışdı. İndi onun paltarlarından həyətlərində bitən qızılgülün ətri gəlirdi. Fərid buna çox sevindi. Bir parça lavaş kəsib, şordan yaxdı, dürmək tutub iştahla yeyə-yeyə yoldaşları ilə oynamağa getdi.

Bəli, əziz oxucu hekayənin sonunda belə qənaətə gəlirik ki, heç bir uşaq istəmir ki, dünyamız, ölkəmiz müharibə görsün, müharibənin dəhşətlərini yaşasın. Fərid kimi bütün uşaqların atalı-analı böyüməsini, sülh, əmin-amanlıq içində yaşamağını arzu edirik. Qoy həmişə sülh olsun!

**1 Aparıcı:** Hüseyn Abbaszadə həm də yüksək əxlaq, mənəviyyat sahibi, mədəni və alicənab bir insan idi. Bir sözlə, Hüseyn Abbaszadənin Azərbaycan ədəbiyyatı və mətbuatının inkişafında göstərdiyi xidmətlər həmişə yüksək qiymətləndirilmişdir. O, bir sıra hərbi orden və medallarla, habelə müstəqil Azərbaycanın ali mükafatı "Şöhrət" ordeni ilə də təltif olunmuşdur.

Haqqında söz açdığımız Azərabycan ədəbi ictimaiyyətinin parlaq simalarından olan Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Hüseyn Abbas oğlu Abbaszadə 2007-ci il dekabrın 12-də ömrünün 86-cı ilində vəfat etmişdir. Tanınmış yazıçı, istedadlı publisist və gözəl insan Hüseyn Abbaszadənin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.Sonda şair Balaş Azəroğlunun yazıçı H.Abbaszadənin 80 illik yubileyində yazdığı bir şeir parçası ilə tədbirimizi yekunlaşdırırıq.

Sən Vətən oğluydun-Vətən əsgəri,
Önündə baş əydi o qanlı düşmən.
Döyüşlərdə keçdi ömrün illəri,
Zəfərlə qayıtdın, sevindi Vətən.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**
**Əsərləri kitablarda**

Seçilmiş əsərlər : 2 cilddə. **C. 1**. - Bakı : Şərq-Qərb, 2006. - 320 s.

Seçilmiş əsərlər : 2 cilddə. **C. 2**. - Bakı : Şərq-Qərb, 2006. - 392 s.

Seçilmiş əsərləri : 3 cilddə.**C. 1.** : Hekayələr və povestlər. - Bakı : Azərnəşr, 1983. - 366+1 s. - kiril əlifbası ilə.

Seçilmiş əsərləri : 3 cilddə. **C. 2.** : Burulğanlar. - Bakı : Azərnəşr, 1984. - 380 s. - kiril əlifbası ilə.

Seçilmiş əsərləri : 3 cilddə.**C. 3.** : General : roman. - Bakı : Azərnəşr, 1984. - 340 s. - kiril əlifbası ilə.

Seçilmiş əsərləri. 2 cilddə. **C. 1.** : Povestlər. - Bakı : Azərnəşr, 1976. - 391 s. - kiril əlifbası ilə.

Seçilmiş əsərləri. 2 cilddə. **C. 2.** : Povestlər, hekayələr. - Bakı : Azərnəşr, 1977. - 412 s. - kiril əlifbası ilə.

Bacı və qardaş : Uşaqlar üçün şeirlər. - Bakı : Uşaqgəncnəşr, 1957. - 18 s. - kiril əlifbası ilə

Balaca Mehribanın nağılları : hekayələr. - Bakı : Sumqayıt, 1997. - 84 s.

Burulğanlar : roman. - Bakı : Gənclik, 1979. - 400 s. - kiril əlifbası ilə.

Burulğanlar : roman. - Bakı : Yazıçı, 1989. - 352 s. - kiril əlifbası ilə

Çəmbərəkənd balladası : hekayələr və povestlər. - Bakı : Gənclik, 1982. - 336 s. - kiril əlifbası ilə

Dünyadan gör necə insanlar gedib. : Xatirələr. - Bakı : Gənclik, 1988. - 365, [3] s.

Əlibalanın ağır səfəri : roman, povestlər və hekayələr. - Bakı : Gənclik, 1985. - 360, [1] s. - kiril əlifbası ilə.

General : roman. - Bakı : Azərnəşr, 1969. - 442, [5] s. - kiril əlifbası ilə.

General : roman. - Bakı : Gənclik, 1981. - 356 s. - kiril əlifbası ilə.

General : roman. - Bakı : Vətən, 2004. - 382 s.

Haradansınız müsyö Abel? : povest və hekayələr. - Bakı : Gənclik, 1972. - 295 s. - kiril əlifbası ilə.

İlqar. - Bakı : Uşaqgəncnəşr, 1955. - 12 s. - kiril əlifbası ilə

Qapını döyürlər:  povestlər və hekayələr. - Bakı : Gənclik, 1970. - 285 s. : şək. - kiril əlifbası ilə.

Qızılgül : Kiçik yaşlı uşaqlar üçün şeirlər, nağıllar və poemalar. - Bakı : Azərnəşr, 1966. - 96 s. - kiril əlifbası ilə.

Ləpə-döyəndə : povestlər. - Bakı : Azərnəşr, 1964. - 227 s. - kiril əlifbası ilə

Nərgizlə Nigarın nağılları : hekayələr. - Bakı : Gənclik, 1986. - 132 s. - kiril əlifbası ilə.

Nurdan yoğrulmuşlar. - Bakı : Avrasiya press, 2008. - 552 s.

Onu tanımadılar : povestlər. - Bakı : Gənclik, 1967. - 216 s. - kiril əlifbası ilə.

Uzaqdan gələn qonaq : povest və hekayələr. - Bakı : Gənclik, 1974. - 252, [1] s. - kiril əlifbası ilə.

Yasəmən : şeirlər. - Bakı : Azərnəşr, 1956. - 64 s. - kiril əlifbası ilə

Yun corab : Azyaşlı uşaqlar üçün şeir. - Bakı : Uşaqgəncnəşr, 1961. - kiril əlifbası ilə.

**Əsərləri dövrü mətbuatda**

Əkizlər; Nərgiz və Nərgiz gülü : Hüseyn Abbaszadə - 90 // Göyərçin. - 2012. - № 11. - S. 4-5.

Medalyon : hekayə // Ədəbiyyat qəzeti. - 2013. - 19 iyul. - № 27. - S. 6.

Onun haqqında çox eşitmişəm : Aşıq Şəmşir haqqında // Ədəbiyyat qəzeti. - 2013. - 13 dekabr. - № 46. - S. 6.

Rasim Babayevin sənət fəlsəfəsi : Məmməd Rahim haqqında // Yada düşdü. - 2012. - № 4. - S. 29-34.

Sən nə yaxşı nənəsən // Savalan. - 2008. - 18-20 noyabr. - S. 6.

Turan Cavid // Ədəbiyyat qəzeti. - 2006. - 5 may. - S. 2.

**Haqqında dövrü mətbuatda**

Adil Babayev haqqında deyilənlər : Adil Babayev - 85 // Ədəbiyyat qəzeti. - 2010. - 26 fevral. - **N 8**. - S. 4.

**Qasımoğlu N**. Portret cizgiləri : Hüseyn Abbaszadə. Nurdan yaranmışlar kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 28 may. - S. 5.

**Nəbiyev B**. Dost itkisi ağır olur : Hüseyn Abbaszadə // Ədəbiyyat qəzeti. - 2007. - 14 dekabr. - S. 3.

**Vəfalı A**. Ədəbiyyatımızın salnaməsi : "Ədəbiyyat qəzeti" - 80 // Ədəbiyyat qəzeti. - 2014. - 10 yanvar. - **№ 1**. - S. 1-3.

**Vəfalı A**. Hüseyn, bu qəzet deyil, kitabdır : Hüseyn Abbaszadə // Ədəbiyyat qəzeti. - 2007. - 14 dekabr. - S. 3.

**Yusifli V**. Unuda bilmərik Hüseyn Abbaszadəni : Hüseyn Abbaszadə - 100 // Ədəbiyyat qəzeti. - 2022. - 17 sentyabr. - **№ 36**. - S. 6-7.

# Nəsrimizin “generalı”- Hüseyn Abbaszadə

(metodik vəsait)

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**